*Aliyə ADGÖZƏLOVA* *

# AZƏRBAYCANIN ŞİMAL-QƏRB BÖLGƏSİNİN DAİRƏVİ MƏBƏDLƏRİ

**Açar sözlər:** Qafqaz Albaniyası, məbəd, bazilika, kilsə, din, mehrab apsidası.
**Key words:** Caucasian Albanian, temple, basilica, church, religion, altar apse.
**Ключевые слова:** Кавказсая Албания, храм, базилика, церковь, религия, алтарь апсида.

Azərbaycanın şimal-qərb bölgəsi öz tarixi abidələri ilə olduqca zəngindir. Bu abidələr istər memarlıq quruluşu ilə, istərsə də müxtəlif coğrafi ərazilərdə yerləşməsi ilə diqqətləri özünə cəlb edir və insanlarda onlara qarşı marağı artırır. Belə abidələr içərisində günbəz–tağbənd quruluşa malik dairəvi məbədlər əsas yer tutur.

Albaniyanda erkən orta əsr memarlığının yüksək səviyyəsi özünü günbəz memarlığında biruzə verir.Günbəzlərin ilk yaranma tarixi bəlli olmasa da, lakin günbəzvari örtüyə malik olan məbədlərin quruluşuna nəzər yetirdikdə bu tikinti quruluşunun bölgəmizdə ilk dəfə olaraq məhz alban memarlığına aid olduğunu iddia etməyə imkan verir (9, s. 228 ).

Günbəz memarlığının V əsrdə əsası qoyulmuş, dirçəliş prosesi VI əsrdə tam qüvvəsi ilə cərəyan etmişdir. Gümbəzli məbədlər "zülmətə qərq olmuş"erkən xristian məbədlərindən fərqli olaraq çoxlu pəncərələr vasitəsilə yaxşı işıqlandırılaraq ibadət zalında xristianların səma ilə əlaqə hissini gücləndirirdi. Xristian memarlığının bu inkişaf mərhələsində işıq ilahi Ədalət rəmzinə çevrilirdi (1,s.144).

Albaniyanın erkən orta əsr memarlığında günbəzli quruluşa dairəvi, xaçvari-günbəzli məbədlərdə, dördbucaq plana malik məbədlərdə, eləcə də günbəzli zala malik məbədlərdə və bazilikalarda rast gəlirik. Bu baxımdan Azərbaycanın şimal-qərb bölgəsində yerləşən üç məbəd öz orjinallığı və memarlıq quruluşu ilə xüsusilə fərqlənir.

Qafqaz Albaniyasının bu üç məbədi (Kilsədağ, Ləkit və Mamrux məbədləri) biri-birindən öz memarlıq, plan quruluşu ilə fərqlənən, dairəvi günbəzlə tamamlanan çoxyaruslu kompozisiyaya malikdirlər.Bu məbədlər arasında Kilsədağ məbədi digər iki məbəddən təkcə binanın ikiyaruslu kompozisiyası ilə deyil, həm də öz quruluşu ilə bir qədər fərqlənir (9, s. 228 ).

* **Aliyə Adgözəlova** - AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun "İlk orta əsrlər arxeologiyası " şöbəsinin əməkdaşı





**Kilsədağ məbədi.** Bu məbədin qalıqları Qəbələ rayonunun Böyük Əmili kəndində Kilsədağında aşkar olunub. Abidə dairəvi formada mərkəzi gümbəzli tikilidir (Tablo 1. ş.1-2). Məbədin diametri 12,4m-dir.O,divarlar və sütunların qalıqlarından, rotondaya bənzər mərkəzi gümbəzdən və ikiqat kompozisiyadan ibarətdir. Divarların çöl tərəfi on iki bucaqlıdır, daxili tərəfi isə dairəvi silindir şəklindədir və onun diametri 10,4m-dir.İkinci daxili dairəvi divarın diametri 8,4m,hündürlüyü 0,40m,divar hörgüsünün qalınlığı isə 1m-dir.Səkkiz daş sütun üçün stilobat var və onlar 2 qat gümbəzi saxlayırlar. Divarlar arasındakı məsafə 1m-dir.Məbədin gümbəzinin diametri 6,4m-dir (8,c.162).Məbədin əsas həcminə şimal-şərq və cənub-şərq tərəfdən iki dairəvi otaq (pastoforiyalar) birləşib. Məbədin qalınlığı 95sm olan divarları əhəng məhlulu iləçaydaşından hörülmüş və bozumtul-ağ puç daşla üzlənmişdir.Sütunlarda və məbədin başqa detallarında bişmiş kərpicdən(24x24,5x5,5;26x26x5;27x25x6sm) və daşdan istifadə edilib, bu da həmin bölgənin bir çox abidələri üçün xarakterikdir ((Ləkit məbədi və s.) 8,c.64).Məbədin üç girişi var. Əsas qapı yeri xarici divarın qərb tərəfində, digər qapılar isə şimal və cənubda yerləşir. Məbədin şərq tərəfindən iki simmetrik dairəvi pastaforilərin daxili diametri 2,3m-dir(2,c.219). Bu yer iki allahın-Axura Mazda və Mitranın müqəddəs yeri idi. Məbədin binası və onun pastoforiləri ikipilləli stilobatın üzərində yerləşir.Daşların ölçüləri 30x60sm-dir.Aparılan tədqiqatlar onu göstərir ki,tapılmış iki daşın üzərindəki xaç şəkli bu abidəni xristianlıq dövrünün əvvəlinə aid etmək imkan verir. Amma memarlıq quruluşu onu göstərir ki, bu dualist məbəd sonralar alban-xristian kilsəsi kimi istifadə olunub (2,c. 205; 8,c. 65).

Şərqdə, o cümlədən Azərbaycanda ənənəvi xalq memarlığında kvadrat əsas üzərində günbəz tikintisi daha çox yayılmışdır. G.Məmmədova Kilsədağ məbədini digər məbədlərdən fərqləndirərək qeyd edir: Kilsədağ məbədi sütunlar üzərində atılmış tağlar və ya yastı antablementlər ilə yaradılan dairəvi günbəz əsası ilə fərqlənir.

Məbədin digər özəlliyi – bir qədər də olsun şərqə istiqamətləndirmənin yoxluğudur, halbuki Cənubi Qafqazın başqa dairəvi məbədlərində mehrab hissələri bu və ya digər üsulla - şərq istiqamətinə yönəlir. Kilsədağın plan quruluşu bu xüsusiyyətləri özündə əks etdirmir, bu da onun xristianlıqdan əvvəlki ayinlərlə əlaqəsinin olduğunu təsdiq etməyə əsas verir. Ehtimal edilir ki, o, bütpərəst məbədi kimi tikilmiş, daha sonralar kilsəyə çevrilmişdir. Bu da Alban memarlığında nadir hal deyildir (9, s. 229 ).

Məbədin binası ikiqat rotonda, onun ikinci qatı mərkəzində dəliyi olan yabanı gümbəz ilə örtülür. İki aspidvari pastaforiya dairəvi, fasadların çöl hissəsi səliqəli və möhtəşəm görünür. Başqa abidələr ilə müqayisədə bunun üç mərkəzi ya-

rusu dar pəncərədən, altısı isə düzbucaq pəncərədən ibarətdir. Üç portalın qapıları daş pilitələr ilə örtülür. Onun yabanı tağı isə dalğavari naxış ilə bəzədilib.

Kilsədağ məbədində 2 variantda bərpa işləri görülüb.1 və 2-ci variantlar bir-birindən ancaq portallar və pəncərələrin sayı ilə fərqlənir.1-ci variantın portalı sütunlu eyvanlar şəklində tikilib və daş günlükləri divarlara dirənir.2-ci variantın portalı dayaz yarımdairə qübbələr şəklində görünür. Məbədin interyeri iki allahın dualist simvolları ilə bəzədilib. İnteryerin və eksteryerin dekorunda adi əlvan keramikadan istifadə olunub(2,c.204-206).

Qazıntı sahəsində aşkar olunmuş arxeoloji materiallar əsasən şirsiz və erkən şirli saxsı qab, inşaat keramikası parçalarından, az miqdarda şüşə, dəmir və tunc əşya qalıqlarından ibarətdir. Əlbəttə, şirli qab qalıqlarının məbəd ərazisindən aşkar olunması həmin məbədin qədim olması fikrinə şübhə yaratmamalıdır. Çünki bu nümunələr məbəddən hələ XI-XII əsrlərə qədər istifadə olunmasından xəbər verir (1,s.155-157).

Arxeoloq R.Göyüşov abidəni VI-VII əsrlərə(5,c.96),bu məbədin daha qədim olduğunu söyləyən memarlar isə onu II-III əsrlərə(2,c.205; 8,c.64),V.Kərimov isə onu II-V əsrlərə(6,c.16) aid edirlər.

**Mamrux(Armatian,Pəri qala)məbədi.** Bu abidə Zaqatala rayonunun Mamrux kəndindən bir neçə km şərqdə, Armatay(Armatian) dağının zirvəsindəki meşəlik ərazidə yerləşmişdir və onun ətəkləri Zərnə, Güllük (Qax r-nu ), Gözbarax və Mamrux (Zaqatala r-nu) kəndlərinə düşür. Əhali arasında bu məbəd "Armatian" və ya "Pəri qala" adı ilə tanınır. Bu ad yer allahı (ilahəsi) – Armantinin adı ilə bağlıdır (10, s 14 ).

Bu abidə ilk dəfə 1974-75-ci illərdə aşkar olunub, lakin 1982-84-cü illərdə memar Ş.Fətullayev və G.Məmmədova tərəfindən öyrənilib. Bu möhtəşəm məbəddən ancaq apsida, iki pastafori, şimal girişinin yarısı və iki daxili pilon qalıb (2,c.207; 8,c.65).

Dağın qərb hissəsindən məbədə gedən yol olub. Dağın şimal tərəfində, divardan 60m kənarda iki dağılmış konus şəklində çən var və onun içindən su boruları keçir. Çənlərin tağlı giriş yerləri əhəngdən hazırlanıb. Məbəddən 1km məsafədə şərq hissədə kiçik kilsə aşkarlanıb. Səkkizbucaq, çox böyük olmayan məbədin həyəti daş divarla əhatə olunub(7,c.17)

Mamruxdakı məbəd əvvəllər ilahi triada-Mitra, Axura, Məzda və Anaxitə (Göy, Günəş və Ay) həsr olunmuşdur və özündə mürəkkəb kompozisiya təşkil edir. Onun üç girişi var. Şərq tərəfdən məbədin mehrab apsidası var və onun hər iki tərəfi pastaforilərlə əhatə olunub(2,c.208).D.Axundov məbədin şimal girişinin bir hissəsinin qorunması barəsində qeyd etdiyi halda, A.Qaraəhmədova isə cənub girişinin daha yaxşı qalmasını qeyd edir. Arxeoloq A.Qaraəhmədovadördillik





tədqiqatlarının nəticələrinə əsaslanaraq D.Axundovun hazırladığı planın həqiqətə uyğun olmadığını göstərir (7,c.17-18).A.Qaraəhmədova qeyd edir ki, planda əks olunmuş məbədin quruluşuna baxarkən belə bir təəssürat yaranır ki, sanki məbəd havadan asılı vəziyyətdə qalıb və ya memar xaçı asılmış vəziyyətdə təsəvvür edib (10, s.15 ).

Məbədə təmtaraqlı görünüşü önə çıxmış portallar verir və onlar zala qədər davam edir. Qərb portal tamamilə, şimal portal qismən dağıdılıb, lakin cənub hissə daha yaxşı qorunub (Tablo 2. § 1-2). Onun tağlı keçidi və kirəmit örtüyü var (10, s.15-16) . Lakin D.A.Axundov bütün bunlarla razılaşmır, yalnız şimal girişinin daha yaxşı qorunub qalmasını qeyd edir(2,c.208).

Məbədin əsasında mərkəzi yeri xaricdən səkkizbucaqlı dairəvi zal tutur, xaricdə diametri 12,8m,daxildə isə 10,7m-ə çatır. Memarlıq xaçının şərq qolunda eni 3m olan yarımdairəvi apsida, apsidanın hər tərəfində diametri 3,1 və 3,2m olan pastafori birləşmişdir və hər birinin üzəri gümbəzlə örtülüb və onların başında dairəvi dəlik mövcud olub. Pastaforilərin hər birinin apsida tərəfdəki divarında dərinliyi 0,95m,eni 0,85m olan rəflər qurulmuşdur (7,c.17-18). Məbədin ümümi diametri 18,8m-dir.Apsida konxa ilə, ibadət zalı isə gümbəzlə əhatələnib. D.Axundova görə zalın gümbəzi çadır tipli örtüyə malik olmuşdur. Daxili dörd pilon üzərində səkkizbucaqlı baraban gümbəz ilə örtülür, hər dörd pilon bir-biri ilə tağllar vasitəsilə birləşmişdir. Yarımdairəvi apsida eni 3 m, böyük dairəvi pastofori ilə bir hündürlükdədir və qırmızı rənglə boyanıb. Pastoforilərin və apsidin üç dar yarımdairəvi pəncərəsi var. Bundan əlavə əsas qatın dairəvi silindirindən, ikinci qatın barabanında daha tez-tez pəncərələrə rast gəlmək olar. Məbədin daxili divarları dini motivli təsvirlərlə bəzədilib(2,c.208-210). Şimaldakı otağın çox böyük olmayan apsidası var və bu otağın apsidaya bənzər şərq hissəsi döşəmədən 20sm hündürdə yerləşib. Cənub girişi ilə pastoforilər arasında düzbucaqlı hissəsində ölçüləri 1,48x1,48m olan ibadət otağı inşa edilmişdir. Onun şərq divarı 80sm yerdən hündürdə yarımdairəvi rəf-mehrab triumfal tağ şəklindədir, pəncərə altlığı isə ikiqatdır. Pastoforilərlə həmin otaqlar arasında 40sm-lik tağlı formalı pəncərələr var və bu otaqlar günahlarının bağışlanmasını diləyən xristianlar üçün tikilib. Giriş qapısı düzbucaqlıdır və çay daşı ilə örtülüb, onun üstündə bir neçə daşdan bəzənmiş timpan var(7,c.18; 1,s.158).Timpan əhəngdən hazırlanmış günlüyün üzərindən asılıb.

Əgər Ləkit məbədində daxili sütunlar məbədin müqəddəs yerini örtürdüsə, Mamrux məbədində iki pilon qapıları örtür. Həmin qapılar mərkəzi apsidanın hər iki tərəfində yerləşən pilonlara doğru aparır. Məbəddə girişin qarşısında pilonların olmasını D.A.Axundov Zərdüştlük və Mitraizmin təsirinin olması kimi əsaslandırır (2,c.209-210).

Məbədin tikintisində daşdan, əhəngdən və kərpicdən istifadə olunub. Məbədin damı kirəmitlə örtülüb. Divarlar çay daşlarından tikilib,üstü əhənglə və daxili isə açıq rəngli suvaqla örtülüb.Zalın divarları bir az nazikdir. Məbədin qorunub qalmış mehrab apsidası və şimal pastaforiya arasındakı dairəvi divarda, suvağın üzərində bəzək izləri qalıb, onlar göy, qırmızı və sarı boyalarla işlənib. Məbəd bir neçə dəfə bərpa olunub(7,c.18-19; 8,c.67; 9, s.230 ).

Məbədin planlaşdırma strukturu özündə üç yaruslu fəza kompozisiyanı birləşdirir. Birinci yarusu mehrab və girişlər, ikincisini- dövrələmə, üçüncüsünü günbəz ilə boyun təşkil edir(9, s.230).

Axundov Mamrux məbədini Kilsədağ məbədindən sonra, Ləkit məbədində əvvəl, III-IV əsrlərdə inşa edildiyini (2,c.208), V.Kərimov Ləkit, Kilsədağ və Mamrux məbədlərini eyni bir dövrə II-V əsrlərə(6,c.16),G.Məmmədova D.Axundovla razılaşır, lakin illüstrasiyalara görə məbədi V-VI əsrlərə (8,c.69; 8, c.212-213), A.Qaraəhmədova isə abidəni VI əsrə aid edərək XIII əsrə qədər fəaliyyət göstərməsi barəsində qeyd edir(7,c.20).

**Ləkit məbədi.**Dairəvi tipli məbədlər arasında daha erkən yaradılmış Ləkit məbədi xüsusi yer tutur. Onun tikilməsi zamanı Albaniyada artıq dairəvi məbədlər məlum idi.Qax rayonunun Ləkit kəndində, fındıq ağaclarının bürüdüyü yüksəklik sahədə, Qumun 6 km-də bir məbəd var və o, mərkəzi-günbəz tikililərə aiddir ((7,c.9; 4,c.28; 3,c.32; 5,c.96) Tablo 3. ş. 1-2).

Məbədin həyəti daş hasar ilə tikilib və darvazası qərb hissədə yerləşir. Dağıntılardan demək olar ki, məbədin ərazisində başqa tikililər də olub.Məbədin bayır divarı xaricdən nazik pilyastrlarla 28 hissəyə bölünüb, daxili tərəfdən isə (qalınlığı 1,4m ) bir-birindən üç metr məsafədə yerləşən 20 yarımdairəvi sütunla bölünmüşdür(9, s.235 ).

Məbəddən cənuba doğru 30km getdikdə xaç suyuna salmaq üçün yer tikilib. Məbəd uçurumun kənarında yerləşir(7,c.10).Bu məbəd XIX əsrin sonlarında tapılıb və 1940 ildə onu qismən təmizləyib bərpa ediblər(2,c.210). İlk dəfə Xaxanov tərəfindən təsvir olunan məbəd Baranovski tərəfindən öyrənilib. Ləkit məbədinin diametri 22m (4,c.28; 3,c.32; 5,c.96; 7,c.9),quruluşu isə tetrakonxdur. Lakin G.Məmmədova Ləkit məbədinin diametrinin 18,8m olduğunu qeyd edir (8,c.71).

Məbədin divarlarından xaricdə, qərb girişinin yanında aparılmış arxeoloji qazıntı işləri nəticəsində 0,50 m dərinlikdə sütun özülləri aşkara çıxarılmışdır və bunların diametrinin 0,85-0,90 m olduğu müəyyənləşdirilmişdir (1,s.147).

Daxili fəzanın təşkili xüsusi maraq doğurur. Kompozisiyanın əsasını dörd pilon əsasında yaradılmış gümbəzaltı kvadrat təşkil edir. Tetrakonxun apsidasının diametri 1m-dir, üç möhkəm sütundan təşkil olunmuşdur və tetrakonxun bucaqlarını vurğulayır. Tetrakonxun dörd küncündə apsidanın bünövrəsini yaradan düzbucaq pilonlar yerləşir (8,c.71,162; 2,c.211).Pilonların daxilə yönəlmiş hissəsi kəsilərək onlara yarımdairəvi forma vermişdir. Pilonun arxasında ayrıca duran sütunlar səkkizbucağın əsasını təşkil edir(8,c.71).

Eksedraların orta sütunları düz girişlə üz-üzə yerləşdirilib.D.A.Axundov bunu ibadətgahın altar hissəsinin bayır tərəfdən görünməməsini tələb edən qədim bütpərəst ənənəsinin əksi kimi izah edir (9, s 235).

Dördbucaq əsasın üzərində silindrik baraban və bir neçə uzunsov günbəz yerləşir və onun diametri 7m olmuşdur. Apsidalarda olan tək sayda sütunlar və üç apsidanın mərkəzi sütununun giriş qapısı ilə üzbəüz yerləşməsi təsadüfi deyil, dini məqsəd daşıyır(2,c.211).

G.Məmmədova qeyd edir ki, bu məbəddə mehrab apsidası funksiyasını şərq konxası yerinə yetirir (8,c.69).İlk məqsədlərdən biri Ləkit məbədinin dini yığıncaq yeri olması və çöl tərəfdən diqqəti cəlb etməməsi idi. Amma xristian kilsəsinin təsiri nəticəsində bu məbədin tikintisinin üslubu xristian kilsəsinə oxşar olub. Pəncərələrin yerləşməsinə gəlincə, bu məsələ düzbucaq və kvadrat məbədlərdəki kimi həll olunub(2,c.211-212).Yenilik tetrakonxanın olmasıdır, bu tikintiyə müasirlik və yenilik gətirir,maraqlı kompozisiyalar yaradır. Tetrakonxun mövcudluğu Ləkit məbədini Kilsədağ və Mamrux kimi dairəvi məbədlərdən fərqləndirən əsas cəhətlərdəndir(2,c.213).V.Kərimov Ləkit məbədini II-V əsrlərə(6,c.16), D.Axundov isə IV əsrin sonu V əsrin əvvəllərinə(2,c.212-213),digər müəlliflər isə V-VI əsrlərə aid edirlər(4,c.28; 8,c.69)

Ən qədim Kilsədağdan başlayaraq Ləkit məbədinə kimi üç abidənin müqayisəli təhlili memarlıq formalarının müxtəlifliyini aşkar etməyə imkan verir. Alban dairəvi məbədlərinin əsas cizgiləri artıq Kilsədağ məbədində formalaşmışdır. Mamrux məbədi isə daha sonra tikilmişdir. Buna tikilinin planına nəzər saldıqda girişin yanında yerləşgələrin əlavə olunması, mehrab apsidasının yaranması, günbəz quruluşunun necə dəyişməsi və s. görməyə imkan verir (9, s. 235-236).

Digər məbədlərdən öz plan quruluşuna görə fərqlənməsinə baxmayaraq, Ləkit məbədi Kilsədağ və Mamrux məbədləri ilə sıx bağlıdır. Beləliklə, bütün bunları nəzərə alaraq üç alban dairəvi məbədinin davamlı əlaqəsini göz önündədir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Xəlilov M.C.., Albaniyanın Xristian Abidələri(IV-X əsrlər). Bakı-2011, s. 341
2. Ахундов Д. А., 1986 Архитектура древнего и раннесредневекового Азербайджана. Баку 1986, c. 274
3. Барановский П.Д., 1947. Памятники в селениях Кум и Лекит / Архитектура Азербайджана. Эпоха Низами. Москва-Баку: Государственное Архитектурное

издательство, с. 29-33
4. Бретаницкий Л.С., Веймарн Б.В., 1976. Искусство Азербайджана IV-XVIII веков. Москва: Искусство, с. 272
5. Геюшев Р. Б., 1984. Христианство в Кавказской Албании (по данным археологии и письменных источников). Баку: Элм, с 192.
6. Керимов В., 2008. Храм Зейзит Кавказской Албании . История, архитектура, археология. Баку: Элм.
7. Карахмедова А.А.,1986. Христианские памятники Кавказской Албании (Алазанская долина). Баку: Элм , с. 30
8. Мамедова Г.Г., 2004. Зодчество Кавказской Албании. Баку: Чашыоглу, с. 224
9. Məmmədova G. Hacıyeva, S. 2013. Qədim və erkən orta əsrlər dövründə Azərbaycan memarlığı.Bakı,s. 278
10. Qaraəhmədova A., 2017. Qafqaz Albaniyasının Xristian Abidələri (Alazan hövzəsi). Bakı, s. 27

## КРУГЛЫЕ ХРАМЫ СЕВЕРО-ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА
## РЕЗЮМЕ

Высокий уровень архитектуры ранней средневековой Албании представлены в виде купольных сооружений. Несмотря на известную дату создания куполов, если обратить внимание на храмы с купольными покрытиями в нашем регионе, то можно с уверенностью сказать, что впервые построению этих храмов способствовали албанские архитекторы.

В архитектуре ранней средневековой Албании можно встретить купольные сооружения в виде круга, крестообразно-купольные храмы, четырехугольные формы, а также вазилики и храмы с купольными замками.

С этой точки зрения три храма, находящиеся в северо западном регионе Азербайджана и особо отличаются своей оригинальностью и архитектурой.

Расположенные в Кавказской Албании 3 храма (Килседаг, Лянит и Машрух) отличаются друг от друга своей архитектурой, планировкой, а также многоярусной купольной композицией.

## ROUND TEMPLES OF THE NORTH-WESTERN AZERBAIJAN
## SUMMARY

The evidence of high level medieval monumental architecture in Caucasian Albania is dome architecture. The time of establishment of first domes is not known, but deep local tradition of construction of centric buildings with dome-typed roofs enables to confirm that Albanian architects were the first in the region to conduct the technique of dome construction.

In early medieval architecture of Albania dome theme was elaborated in round and cross-dome temples, churches of the type of "free cross", as well as dome halls and basilica, which are described above. Particular meaning in history of Azerbaijan is obtained by three round-typed temples, which are considered as evidence of high accomplishments and originality of Albanian architecture.

All three above mentioned temples of Caucasian Albania ( The Kilsedag, Lekit and Mamrukh temples ) have round configuration of a plan, multi-tiered composition and dome completion, differentianting by specialties of architectural-planning and construction solution.





## İLLÜSTRASİYALARIN SİYAHISI

**Tablo 1**



*1. Kilsədağ məbədinin ümumi görünüşü*



*2. Kilsədağ məbədinin planı*

**Tablo 2**



*1. Mamrux məbədinin ümumi görünüşü*



*2. Mamrux məbədinin planı*

**Tablo 3**



*1. Ləkit məbədinin ümumi görünüşü*



*2. Ləkit məbədinin planı*